# Cəlil Məmmədquluzadənin əsərləri Litva dilində

**Görkəmli Azərbaycan yazıçısı, böyük demokrat ədib Cəlil Məmmədquluzadənin əsərləri XX əsrdə ana dilindən başqa, yalnız rus və fars dillərində kitab halında nəşr edilmişdir. Ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra yazıçının əsərlərinin dünya ölkələrində nəşr edilməsi sahəsində mühüm addımlar atılmaqdadır.**

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Cəlil Məmmədquluzadənin dram və nəsr əsərlərindən, publisistik məqalələrindən seçmələr tədqiqatçının ön sözü və təqdim etdiyi fotomateriallarla birlikdə Rusiyada (1999), Pakistanda (2004), Misir Ərəb Respublikasında (2008), Macarıstanda (2012) və Gürcüstanda (2016) kitab halında çap edilərək, həmin ölkələrin ictimaiyyətinə çatdırılmış, böyük maraq doğurmuşdur. Bu günlərdə Cəlil Məmmədquluzadənin ”Nigarançılıq” adlı daha bir kitabı Litva Respublikasının paytaxtı Vilnüs şəhərində nəşr edilmişdir. Kitaba görkəmli yazıçının ”Danabaş kəndinin əhvalatları” povestindən bir parça, ”Poçt qutusu”, ”Kişmiş oyunu”, ”Dəllək”, ”Pirverdinin xoruzu”, ”Fatma xala”, ”Qurbanəli bəy”, ”Quzu”, ”Nigarançılıq”, ”Konsulun arvadı”, ”Xanın təsbehi”, ”Qəssab”, ”Zırrama”, ”Rus qızı”, ”Saqqallı uşaq”, ”Buz”, ”Hamballar”, ”Bəlkə də qaytardılar”, ”İki ər” hekayələri, ”Niyə məni döyürsünüz” felyetonu və ”Kamança” pyesi daxil edilmişdir. Kitabın ideya müəllifi və ön sözün müəllifi akademik İsa Həbibbəylidir. Cəlil Məmmədquluzadənin əsərlərini litva dilinə Litva Dövlət mükafatı laureatı, Yazıçılar İttifaqının üzvü, professor İrena Aleksaite və Litvada yaşayan tanınmış ədəbiyyatşünas, publisist və tərcüməçi Mahir Həmzəyev tərcümə etmişlər. Tərcüməçilər görkəmli yazıçının əsas qayəsini və orijinalın koloritini Litva oxucularına çatdıra bilmişlər. Cəlil Məmmədquluzadənin Litva duilində çıxan ”Nigarançılıq” kitabında görkəmli karikatura ustaları Oskar Şmerlinq, Əzim Əzimzadə və qravüraçı rəssam Elturanın karikatura və rəsmlərindən istifadə olunmuşdur. Kitabın üz qabığında ”Molla Nəsrəddin” jurnalının 1906-cı ildə çap olunmuş birinci sayından Oskar Şmerlinqin çəkdiyi ”Müsəlman dünyasının oyanması” rəsm əsəri verilmişdir. Annotasiyada Azərbaycan ədəbiyyatının klassiki, tənqidi realizmin və satirik mətbuatın banisi Cəlil Məmmədquluzadənin xalq həyatını realist şəkildə əks etdirdiyi, ”insanların azad və ləyaqətlə yaşamasına mane olan halları satira atəşinə tutduğu” xüsusi olaraq qeyd edilmişdir. Cəlil Məmmədquluzadənin ”Nigarançılıq” kitabının tərcüməsi və nəşri Azərbaycan Respublikasının Litva Respublikasındakı Səfirliyinin dəstəyi ilə həyata keçirilmişdir. Hazırda akademik İsa Həbibbəyli Cəlil Məmmədquluzadənin ”Poçt qutusu” hekayəsini dünyanın 25 dilində müqəddimə, fotolar və illüstrasiyalarla birlikdə çapa hazırlayır.




***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***

Kaspi.-2017.-10 yanvar.-S.15.